Multikultural dəyərlərin qorunmasında və təbliğində mətbuatın rolu

Dünya informasiya məkanına inteqrasiya başlıca vəzifələrdəndir

Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunu tutan Azərbaycanın 24 ildən artıq dövrü ahəstə eden müstəqillik tarixində qazandığı uğurların miqyası genişdir. Ən əsası ölkəmiz Avropa Şurası, İslam Konfransı Təşkilatı kimi demokratik dəyərlərin inkişafına xüsusi diqqət yönəldən qurumların üzvü olmaqla bu prinsiplərə sadiqliyini sözdə deyil, əməldə təsdiqlediyini bir daha nümayiş etdirib. Azərbaycan, eyni zamanda, müxtəlif mədəniyyətlərin və dinlərin qovuşduğunda yerləşən ölkə kimi dövlətlər, xalqlar arasında körpü rolunu oynayır, əməkdaşlığın inkişafına və möhkəmləndirilməsinə davamlı töhfələr verir. Dövlətimizin başçısı cənab İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsində də məqsəd mənzil Azərbaycanın multikultural cəmiyyətlərin inkişafına töhfələrini daha da artırmaqdır. Sərəncamda da qeyd edilir ki, tarixi İpək Yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun cari ildə Bakıda keçirilməsi barədə qərar və bu günlərdə həmin mötəbər beynəlxalq tədbirin öz işini böyük müvəffəqiyyətlə başa çatdırması dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi daşıyan 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi bir daha belə bir həqiqəti ortaya qoyur ki, Azərbaycan nümunəsi multikulturalizmin yaşadığını, ölkəmizin bu sahəyə davamlı töhfələr verməkdə maraqlı olduğunu nümayiş etdirir. Bu fonda qeyd edə bilərik ki, Azərbaycanın hər sahədə təcrübəsi nümunədir, öyrənilməsi bir zərurətdir. İnkişafın Azərbaycan modelinin mövcudluğu bunun təsdiqidir.

Artıq 25 ilə yaxın müstəqillik tarixinə malik olan Azərbaycanın bu gününü müstəqilliyimizin ilk illəri ilə müqayisə etdikdə böyük inkişafın, tərəqqinin, müsairliyin və yenililyin şahidi oluruq. Ötən dövrün uğurlarına söykənərək, qarşıdakı illər üçün Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyimizi bildirirksə, təbii ki, bu, düzgün təmələ əsaslanan və gələcəyə hesablanmış siyasətin nəticəsidir. Hər bir mühüm hadisə ötən dövrün təhlilini bir zərurətə çevirir. Dövlətimizin başçısı cənab İlham Əliyevin yanvarın 29-da Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşündə Azərbaycanın müstəqillik tarixində keçdiyi yola nəzər salaraq söylədiyi bu fikirləri bir daha xatırlatmaq istərdik: "Mən bu tarixə neyə görə qayıdıram? Çünki birincisi, bu həqiqətdir. Dediyim sözlər və xüsusilə verdiyim qiymətlər ən diplomatik və yumşaq qiymətlərdir. Gənclər bunu bilməlidirlər ki, biz hansı vəziyyətdən çıxıb, hansı vəziyyətə gəlib çıxmışıq. Digər tərəfdən, əgər bu tarixi yaddan çıxarsaq, onda biz öz gələcək planlarımızı düzgün qura bilməyəcəyik." Azərbaycanın müstəqillik illərində keçdiyi yolun tarixi paralellər əsasında təhlil edilməsini qətiyyə mühüm vəzifə kimi qoyan möhtərəm Prezidentimiz cənab İlham Əliyev bu işdə mətbuatın üzərinə böyük vəzifələr düşdüyünü bildirir.

Əbəs yerə mətbuat cəmiyyətin gözgüsü kimi dəyərləndirilmir. Keçilən yolun təhlili mətbuatın hər bir dövrün tələbinə yüksək səviyyədə cavab verdiyini təsdiqləyir. 1991-ci ildə dövlət müstəqilliyimizin yenidən bərpasından sonrakı ilk illərdə bütün sahələrdə olduğu kimi, mətbuat da ciddi problemlərlə üz-üzə qalmışdı. Dahi şəxsiyyət Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanı dağılmaq, parçalanmaq, bir dövlət olaraq varlığını itirmək təhlükəsindən xilas etdiyi kimi, milli mətbuatımızda da mövcud problemlər tədricən aradan qaldırıldı, qanunvericilik aktlarında dəyişikliklər edildi və Azərbaycan xuxusunun informasiya tələbatının yüksək səviyyədə ödənilməsi üçün zəruri addımlar atıldı. Ulu öndər Heydər Əliyev müstəqil KİV-lərin inkişafını demokratiyanın tələbi kimi dəyərləndirərək bu sahəyə diqqətini esirgəmədi. Milli və bəşəri dəyərləri rəhbər tutan Azərbaycan mətbuatı demokratiya və azlığın mühüm vasitəsi kimi xalqımıza öz ali məqsədlərini həyata keçirmək yolunda beləcə yol olub, müstəqil xidmətlər göstərib. Ən əsası suverenliyimizi daimi yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıdan tələb olunan bu amalın - azərbaycançılığın təbliğində mətbuatın üzərinə böyük məsuliyyət düşür. Bu reallıq inkaredilməzdir ki, hər bir dövləti, xalqı yaşadan və tanıdan onun milli mənəvi dəyərləri, mədəniyyətidir. Milli ideyanın formalaşması, millətin məqsədyönlülüyünün dəstəklənməsi İqtisadi uğurlarımızın əsasını təşkil etməklə soyqasalarımızın birlik və həmrəyliyi üçün də başlıca amildir. Dünyada hərbi-siyasi münaqişələrin artdığı hazırkı dövrdə Azərbaycanın sabitlik diyarı kimi tanınması, dünya birliyinda özünə layiqli yer tutması, ölkəmizin tolerantlıq və multikulturalizm sahəsində qazandığı nailiyyətlərin təbliğ olunması, şübhəsiz, milli həmrəylik və birliyimiz nəticəsində mümkün olmuşdur. Azərbaycan xalqını təbii ki, vahid ideologiya ətrafında birləşdirən onun zəngin mədəniyyəti, mənəvi dəyərləri, adət-ənənələri ilə yanaşı, tolerant ölkə olmasıdır. Azərbaycanın tolerantlıq təcrübəsi digər ölkələrə nümunə göstərilir. Ölkəmizdə artıq ənənə halını alan Beynəlxalq Humanitar Forumların keçirilməsi Azərbaycanın Avropa ilə Asiya arasında körpü roluna töhfələrini artırır. Bu kimi tədbirlər eyni zamanda belə bir reallığı da ortaya qoyur ki, ölkəmizdə multikulturalizmə bağlı meyillərin gücləndirilməsi üçün zəruri addımlar atılır və bunlar öz müsbət nəticəsini verir. Dövlət siyasətimizin əsasında dayanan azərbaycançılığın, milli dəyərlərimizdən olan multikulturalizmin inkişafı istiqamətində davamlı addımların ictimaiyyətə çatdırılması aktuallığını bütün dövrlərdə qoruyur. Məhz bu baxımdan bütün gerçəkliklərin bələdçisi olan mətbuata diqqət və qayğı dövlət siyasətinin əsasında dayanıb. Belə ki, mətbuatın dünya təcrübəsindən bəhrələnməsi, xüsusilə KİV-lərin maddi-texniki imkanlarının yaxşılaşdırılması, jurnalistlərin peşəkarlığının artırılması və hüquqlarının qorunması üçün bütün zəruri addımlar atılmış və tədbirlər həyata keçirilmişdir.

1998-ci il 6 avqust tarixində mətbuatda dövlət nəzarət mexanizmi olan senzuranı ləğv etməklə azad, müstəqil KİV-lərin inkişafı üçün geniş imkanlar açan ümummilli lider Heydər Əliyev imzaladığı fərman və sərəncamlarla cəmiyyəti maraqlandıran informasiya bolluğunun yaradılmasının təməlini qoydu. Ölkədə xeyli sayda müstəqil mətbu orqanın və informasiya agentliklərinin, özəl elektron KİV-lərin, jurnalist qurum və birliklərinin və bu sahəni əhatə eden qeyri-hökumət təşkilatlarının azad fəaliyyət göstərməsi üçün zəruri imkanlar yaradıldı. Ulu öndər Heydər Əliyev 2002-ci ilde Azərbaycanda milli mətbuatın daha da inkişaf etdirilməsi sahəsindəki xidmətlərinə görə "Jurnalistlərin dostu" mükafatına layiq görüldü. Ümummilli lider Heydər Əliyev həmişə qələm sahiblərindən məsuliyyətli olmağı tələb edirdi: "Mətbuat müstəqil, jurnalist peşəkar olmalıdır. Kütləvi informasiya vasitələri cəmiyyətdə baş verən prosesləri olduğu kimi, heç bir qərəzə, təhrifə yol vermədən ictimaiyyətə çatdırmalıdır." Dünya təcrübəsinə istinaden qeyd edilir ki, hansı ölkə informasiya bolluğuna malikdirsə, o, varlı dövlət kimi qəbul olunur. Bu şəraitin yaradılması üçün daim mətbuatla birgə çalışan, dövlət siyasətinin cəmiyyətə olduğu kimi çatdırılmasında hamıdan çox maraqlı olan ümummilli lider Heydər Əliyev jurnalistlərdən yalnız heqiqəti əks etdirən informasiyaları yaymağı tələb edirdi. Ulu Öndər söz, mətbuat azadlığının inkişafına angəl olan sünü maneələrin aradan qaldırılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsini təmin etdi, vətəndaş cəmiyyətinin quruculuğu özünün inkişaf modeli seçən Azərbaycanda ictimai fikrin formalaşmasında KİV-lərin rolunun artırılmasını başlıca məqsəd kimi qarşıya qoydu. Ulu öndər Heydər Əliyev "Bizim əsrumi məqsədimiz mətbuata daha da çox azadlıq vermək, söz azadlığını daha geniş təmin etmək. Azərbaycanda demokratiyanı bütün sahələr üzrə inkişaf etdirməkdən ibarətdir" söyləməklə açıq sözün, heqiqəti əks etdirən informasiyaların tərəfdarı, mətbuat azadlığının qarantı olduğunu bəyan edirdi.

Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı möhtərəm İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk günden azad mətbuatın inkişafına yönəlmış bu siyasətə sadiq qaldı. Dövlətimizin başçısı cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında Kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası" buna aydın sübutdur. Prezident İlham Əliyevin qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının ödənilməsi ilə bağlı Sərəncamına əsasən, maddi çətinliklərlə üzləşən qəzetlərin qaytara bilmədiyi borc dövlət büdcəsindən ödənildi. Möhtərəm Prezidentimiz İlham Əliyevin Fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da mətbuatın inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Dövlət Dəstəyi Konsepsiyasına uyğun olaraq fikir, söz və məlumat azadlığının, pluralizmin daha geniş təmin olunması üçün əlavə tədbirlər həyata keçirildi. İnsanların şəxsi həyatına müdaxilənin aradan qaldırılması, böhtan xarakterli yazıların qarşısının alınması üçün ümumxalq səsverməsi ilə Konstitusiyaya edilən bazi əlavə və dəyişikliklərdə mətbuatın və ictimaiyyətin üzərinə düşən vəzifələr dəqiqləşdirildi. Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Mətbuat Şurası tərəfindən müxtəlif nazirliklərlə birlikdə günümüzün reallığını əks etdirən ayrı-ayrı mövzularla bağlı jurnalistlər arasında fərdi yazı müsabibələrinin təşkili, qaliblərin mükafatlandırılması müstəqil mətbuatın inkişafına yönəlmiş en mütərəqqi addımlardır. Jurnalistlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması, mənzillə təmin edilməsi da mətbuata, bu sahədə çalışanlara dövlət dəstəyi və qayğısının ifadəsidir.

Bu gün ölkəmiz bütün sahələrdə inkişaf, tərəqqi dövrünü yaşayır. İqtisadiyyatı hər bir inkişafın təməl daşı kimi dəyərləndiren dövlətimizin başçısı cənab İlham Əliyev iqtisadi tərəqqinin davamlılığını təmin etmək üçün biri-birinden əhəmiyyətli addımlar atır. Azərbaycanda iqtisadi tərəqqi maliyyə imkanlarının genişlənməsi ilə müşayiət olunur ki, bu da mühüm sosial-iqtisadi layihələrin həyata keçirilməsini sürətləndirir. İqtisadi yüksəliş mətbuatın inkişafına yönələn tədbirlərdən da aydın görünür. 2010-cu ilda "Jurnalistlərin dostu" mükafatının təqdimat mərasimində dövlətimizin başçısı İlham Əliyev bildirmişdir: "Jurnalistlərin sosial müdafiəsi, maişət problemləri həllini tapmalıdır. Bu il imzaladığım Sərəncam və Prezidentin Ehtiyat Fondundan ayrılmış vəsait sadəcə olaraq birinci addımdır. Mən bu gün demək istəyirəm ki, bununla biz işimizi bitmiş hesab etmirik. Gələcəkdə buna bənzər addımlar atılacaq və yenə də deyirəm, tamamilə təmennəsiz atılacaqdır. Mən o vaxt da jurnalist ictimaiyyətinə müraciət etdim və fikrimi söyləndim ki, bu mənziller bölünəndə medianın bütün istiqamətləri, neca dəyərlər, bütün düşərgələri bundan bəhrələnə bilsinlər. Yəni, burada heç bir ayrı-seçkilik olmamalıdır və adətən prinsipi əsas olmalıdır." Bu fikirlərin davamı olaraq möhtərəm Prezidentimiz İlham Əliyev milli mətbuatın yaranmasının 138-ci ildönümünda jurnalistlər üçün tikilmiş binada mənzillərin paylanması mərasimində bildirmişdir "...belkə da siz bunu bilirsiniz ki, burada yaşayacaq jurnalistlərin sayı kifayət qədərdir, 150-den çoxdur. Ancaq dövlət tərəfinden mükafata layiq olan jurnalistlərin sayı hələ de vardır. Bunu nəzərə alaraq, yeni jurnalist ictimaiyyətinden təşəbbüs, yəni təklif irəli sürüldü ki, bu layihə davam etdirilsin. Mən de buna müsbət baxıram. Bu evdə mənzil ala bilməyən, ancaq buna layiq olan jurnalistlərin mənzillərlə təmin edilməsi üçün əlavə tədbirlər görüləcəkdir. İstisna etmirəm ki, gələcəkdə bu yere "Jurnalistlər şəhərciyi" deyəcəklər," Prezident İlham Əliyevin 22 iyul 2013-cü il tarixli "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamı da deyilənlərin təsdiqidir. Ölkənin iqtisadi qüdrətinin artmasından irəli gələn bu kimi addımlar bir daha təsdiqləyir ki, bütün sahələrin kompleks şəkildə inkişafı, tərəqqisi dövlətin hayata keçirdiyi siyasətin əsasını təşkil edir, ən əsası hansı sahədə çalışmasından asılı olmayaraq hər kəs bu inkişafı özünün gündəlik hayatında hiss edir.

Davamı 14-cü səhifədə

Multikultural dəyərlərin qorunmasında və təbliğində mətbuatın rolu

Dünya informasiya məkanına inteqrasiya başlıca vəzifələrdəndir

⇨ Əvvəli 13-cü səhifədə

Müstəqil mətbuatın inkişafına xidmət edən davamlı addımlar möhtərəm Prezidentimiz İlham Əliyevin "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin keçirdiyi sorğunun nəticələrinə əsasən, iki dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görülməsini şərtləndirib. O da malumdur ki, "Jurnalistlərin dostu" mükafatının təsis edilməsinə əsas meqsəd ölkədə söz və məlumat azadlığı prinsiplərini inkişaf etdirmək, media ilə dövlət orqanları, özəl qurumlar, siyasi partiyalar və ictimai birliklər arasında əlaqələrin möhkəmləndirilməsinə köməklik göstərmək. KİV-lərə qayğı ənənələrinin davamlı olmasını təmin etməkdir. "Jurnalistlərin dostu olmaq mənim üçün böyük şərəfdir" söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev bildirmişdir: "...aldığım bu mükafatdan asılı olmayaraq, mən bundan sonra da çalışacağam ki, Azərbaycanda bu sahədə daha da böyük addımlar atılsın. Azərbaycan dövləti öz dəstəyini göstərsin. Ölkədə müasir jurnalistikanın formalaşması işində Azərbaycan dövləti və Prezident kimi mən saylarımı əsirgəməyəcəyəm." Göründüyü kimi, möhtərəm Prezidentimiz İlham Əliyevin jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımları bir daha bu sahənin inkişafının dövlətin siyasətində prioritet olduğunu nümayiş etdirir. Bu mühüm hadisə nəinki ölkə, eyni zamanda beynəlxalq ictimaiyyət tərəfindən də yüksək dəyərləndirilir.

Ümumiləşdirilmiş şəkildə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu istiqamətində atdığı addımların, həyata keçirdiyi siyasətin bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın qarşısında genişmiqyaslı açır, camiyyətimizin güzgüsü olan mətbuatın iqtisadi müstəqilliyini gücləndirir, jurnalistlərin sosial müdafiəsini təmin edir, KİV-lərin fəaliyyətini tənzimləyən qanunvericilik bazasını təkmilləşdirməklə dünya informasiya məkanına inteqrasiyasını sürətləndirir.

Ölkəmizdə yüksək texnologiyaların tətbiqinə və kosmik sənayenin yaradılmasına xüsusi diqqət göstərilir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2013-cü İlin ölkədə "Informasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin eyniyə təsdiqidir.

İnkaredilməzdir ki, hər bir ölkənin qarşılıqlı əməkdaşlıq prinsiplərinə sadiq qaldığı dostları kimi, müəyyən səbəblərdən, münaqişəli məsələlərin mövcudluğu üzündən mövqeləri fərqli olan əlaqələri də mümkündür. Təbii ki, bu zaman əsassız informasiyalar yayan sosial şəbəkələrdən istifadə olunur. Belə qərəzli münasibət ölkəmizdən də yan keçməyib. İqtisadi inkişafı, diplomatik uğurları ilə dünya birliyində liderliyini qoruyan Azərbaycan antiazərbaycan qrupların və erməni lobbisinin əlində oyuncağa çevrilən bəzi dairələrin, makrli təşkilatların qərəzli informasiya hücumlarına məruz qalır. "Eurovision-2012"-ya, ilk Avropa Oyunlarına ev sahibliyi şansını qazanan ölkəmizə qarşı qərəzli münasibətdən yaranan qısqanclıq meyillərindən qaynaqlanan "qara piar" xarakterli informasiyaların yaranma səbəbləri kimi, "muzdlu xidmət müəllifləri" də məlli idi. Qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı olan, beynəlxalq təşkilatlarda söz sahibi kimi yüksək mövqeyə yüksələn Azərbaycan heqiqətlərinə kölgə salmağa çalışan ermənipərəst qüvvələr ölkə mükaliləfatinin əsassız arqumentlərini realliq kimi qələmə vərərək ölkəmiz haqqında mənfi imic fomalaşdırmağa cəhd etsələr də, niyyətləri baş tutmadı. Hətta beynəlxalq təşkilatlarda təmsil olunan diplomatlar, siyasətçilər belə məkrli yanaşamalara iradlarını bildirərək Azərbaycanı dünyada ən sürətli inkişaf edən ölkə kimi xarakterizə edərək qərəzli QHT-lərin iddialarına Dünya İqtisadi Forumu kimi daha nüfuzlu təşkilatların hesabatlarındakı rəqəmlərə istinad etdilər. "Əsas odur ki, uğurlarımız hərtərəflidir və bu uğurlar hər sahədə davam edəcəkdir" söyləyən cənab İlham Əliyevin vurğuladığı kimi, dinamik sürətlə inkişaf edən güclü Azərbaycanın dostları günbəgün artır.

Qlobal informasiya məkanında həqiqətlərə yanaşı, təxribat və qarayaxmaların da kifayət qədər artdığını nəzərə alan möhtərəm Prezidentimiz İlham Əliyev informasiya təhlükəsizliyini ərəzaq, enerji təhlükəsizliyi kimi dövlət siyasətinin prioriteti hesab edir. "İnformasiya təhlükəsizliyi də indiki dövrdə çox vacibdir... Biza qarşı informasiya müharibəsi aparılır. Bu həqiqətdir... Bu informasiya müharibəsinin aparılması işində, əlbəttə ki, ilk növbədə erməni lobbisi öz fəallığı ilə seçilir. Azərbaycanı qaralamaq, Azərbaycan reallıqlarını danmaq, Azərbaycanı gəridə qalmış, antidemokratik ölkə kimi, dünyaya təqdim etmək cəhdləri ilk növbədə erməni lobbisinin çirkin əməllərindən qaynaqlanır" söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev bildirir ki, ölkəmiz əleyhinə açıq şəkildə kampaniya aparan ermənilərin cəhdlərinə baxmayaraq Azərbaycan siyasi, iqtisadi, diplomatiya, demokratiya sahəsində olduğu kimi, informasiya mübarizəsində də qalibdir. Təbliğat real faktlara, tarixi həqiqətlərə əsaslandıqda ictimai fikrə təsir imkanı daha geniş olur. Azərbaycanın əleyhinə yayılan mənfi informasiyaların təkanverici qüvvəsi olan erməni lobbisinin çirkin pulları ilə dolanan bəzi "siyasi xadimlər"ın, qondarma "Dağlıq Qarabağ Respublikası"na sefər edənlərin bu həqiqətləri "görməməsi" ikrah doğurur. "Onlara elə gəlir ki, Azərbaycan kimi ölkə müstəqil siyasət aparmamalıdır" vurğulayan möhtərəm Prezidentimiz İlham Əliyev haqlı olaraq bildirir ki, onları qıcıqlandıran da kiçik olsa da dünya birliyində qüdrətli dövlət kimi mövqeyini möhkəmləndirən, demokratik, tolerant dövlət olaraq tecrübəsi öyrənilən Azərbaycanın tutduğu dinamik inkişaf yolunda qətiyyətlə irəliləməsidir.

Müstəqilliyimizin əbədiliyini uğurlu addımları ilə qoruyub saxlayan dövlətimizin daxili və xarici siyasəti ələ təmə üzərində qurulub ki, heç bir kənar qüvvə Azərbaycan xalqının iradəsinə təsir göstərmək, uğurlarımıza kölgə salmaq imkanında deyil. Möhtərəm Prezidentimiz İlham Əliyev dəfələrlə bildirir ki, Azərbaycan heç vaxt qarşıdurma arenasına çevrilməyəcək. Başqa ölkələrin planlarında iştirak etməyəcək: "Kim istəyir Azərbaycanı qarşıdurma arenasına çevirsin, getsin özü üçün başqa yer axtarsın. Biz heç vaxt imkan vərə bilmərik ki, ərazimizdən qonşulara qarşı hansısa mənfi planlarda istifadə edilsin və bunu hamı bilir." İctimai rəyi əks etdirməyən, təxribat xarakterli mənfi məlumatların qarşısının alınmasında güclü vasitə olan informasiya təhlükəsizliyinin təminatı Azərbaycan heqiqətlərinin olduğu kimi dünyaya çatdırılması baxımından daha önəmlidir. Milli təhlükəsizliyə xələl gətirən informasiyaların yayılması yolverilməzdir. Bu baxımdan ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" Sərəncamın əhəmiyyətini xüsusi qeyd etməliyik. Sənəddə də qeyd olunur ki, hərbi hissələrin dislokasiyası ilə bağlı məlumatların verilməsində milli və dövlətçilik maraqlarına diqqətlə yanaşılmalı, dövlət sirlərinin qorunmasında qanundan kənar hallarına baş verməsinə üçün KİV-lərlə əhali arasında təbliğat-izahat işi gerişləndirilməlidir. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da da informasiya təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin parametrləri əksini tapır. Bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi, ölkənin milli informasiya məkanının, o cümlədən informasiya təhlükəsizliyini təmin edən sistemin inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətləri kimi diqqətdə saxlanılır. Təbii ki, mətbuat işçiləri Milli Strategiyadan irəli gələn vəzifələr barədə məlumatlıdırlar. Amma qarşıya qoyulan məqsədə nail olmaq üçün ilk növbədə jurnalistlərdə vətənpərvərlik hissləri, peşə məsuliyyəti, hadisələrə qərəzsiz, tərəfsiz yanaşma əsas olmalıdır.

Dövlətimizin başçısı cənab İlham Əliyevin çıxışlarında da jurnalist məsuliyyətinin önəmi xüsusi olaraq qeyd edilir: "Bizdə söz azadlığı var. Biz söz azadlığını qoruyacağıq və müdafiə edəcəyik. Azərbaycan dövləti və Azərbaycan iqtidarı tənqidləri də, hətta təhqirlərə də dözümlüdür. Mən Prezident kimi buna əhəmiyyət vermirəm. Ancaq söhbət ondan getmir. Söhbət ondan gedir ki, bizim cəmiyyətdə belə hallar çox pis qarşılanır. Mediada yalan informasiyanın verilməsi qəbuledilməzdir. Əvvəlki dövrlərdə bu, çox geniş meydan tapmış bir yanaşma idi. Yalan informasiyanı ortaya atmaq, sensasiya yaratmaq, ondan sonra bu yalanın ətrafında müzakirələr aparmaq, elə bil ki, bunu reallığa çevirmək, ondan sonra bu yalanı xarici mediaya ötürmək və sonra bunu bir dəqiq xəbər kimi yenə qaytarmaq- bütün bunları biz bilirik. Mən hesab edirəm ki, bu siyasi mübarizə üsulu Azərbaycanın siyasi sahəsindən getməlidir. Burada əlbəttə ki, medianın rolu çox böyükdür. Yəni bu gün internet dövründə hər bir yazını dünyada oxumaq olar və bir dəfə, iki dəfə, üç dəfə yalan yazılanda, dördüncü dəfə artıq o medianın hörməti də düşəcək, o orqana inam da azalacaq."

Vüqar Rəhimzadə,
YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist

Bir əsas meqamı da qeyd edək ki, ölkəmizdə jurnalistlərin sorğularına cavab vermədən imtina etməyə, cavabsız buraxmağa və jurnalistə informasiyanın verilməsinə məhduduiyyət qoymağa görə yeni cəzaların tətbiq olunması da müstəqil mətbuatın inkişafına diqqətdən, jurnalist əməyinə verilən dəyərdən qaynaqlanır. Bu, İnzibati Xətalar Məcəlləsinin 382-ci maddəsində təsbit olunub. Belə bir vacib addımın atılması mövcud problemlərin - əsasi olmayan, plagiat, ilkin mənbənin göstərilməməsi, "etibarlı", "məlumatlı mənbə"lərə istinad kimi halların aradan qaldırılmasına öz müsbət təsirini göstərəcək.

Bu gün iqtisadi inkişafı ilə beynəlxalq münasibətlər sistemində də öz yerini və rolunu möhkəmləndirən Azərbaycanın yeganə problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Dövlətimizin uğurlu siyasəti bu problemizmizin də tezliklə öz ədalətli həllini tapacağına inamı artırır. Möhtərəm Prezidentimiz İlham Əliyev ən yüksək tribunalardan Azərbaycan dövlətinin dayişməz mövqeyini bəyan edərək bildirir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bir qarış torpağımız belə düşmənə verilməyəcək.

Müharibə şəraitində yaşayan bir ölkədə axucunun, tamaşaçının yazılı və elektron KİV-lərdən gözlədiklərini geniş şərh etməyə ehtiyac yoxdur. Həqiqətlərimizin ölkə və dünya ictimaiyyətinə olduğu kimi çatdırılmasında KİV-lərin üzərinə böyük məsuliyyət düşür. Eyni zamanda bu gün yazılı və elektron KİV-lərin qarşısında dayanan əsas vəzifələrdən biri onların məhz vətənpərvərlik hissinin artırılmasına xidmət edən yazılara, verilişlərə daha geniş yer vermələridir. XXI əsrin informasiya-kommunikasiya texnologiyaları əsri olduğunu nəzərə alsaq Azərbaycan reallıqlarının təbliği üçün nə qədər geniş imkanların mövcud olduğunu görərik. Cənab İlham Əliyevə ikinci dəfə "Jurnalistlərin dostu" mükafatının təqdimetmə mərasimində dövlətimizin başçısı bildirmişdir: "XXI əsr informasiya mübarizəsi əsridir. İnternetin mövcudluğu əlbəttə ki, bu mübarizəni daha da kəskinləşdirir. Biz buna hazır olmalıyıq, biz öz reallıqlarımızı dünya birliyinə çatdırmalıyıq. Burada əlbəttə ki, əsas vəzifəni ilk növbədə dövlət öz üzərinə götürür. Ancaq media nümayəndələri də çalışmalıdırlar ki, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqeyimizi dünya birliyinə çatdırsınlar. Müxtəlif dillərdə internet resursları yaradılmalıdır. Dağlıq Qarabağla bağlı tarixi həqiqətlər dünya birliyinə çatdırılmalıdır. Belə olan halda biz informasiya mübarizəsində daha da böyük uğurlara nail ola biləcəyik."

Azərbaycanın uğurlarından bəhs edilərkən ölkəmizin beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan seçilməsi xüsusi qeyd edilir. Bütün dünyanı düşündürən problemlərin müzakirəsi üçün Azərbaycanın etibarlı ünvan kimi seçilməsi ölkəmizdə mövcud olan sabitliyə verilən dəyər, davamlı inkişafımıza nikbin baxışlardır. Təbii ki, hər bir tədbir mahiyyəti ilə yanaşı, keçirildiyi ölkə üçün əhəmiyyəti baxımından da önəmlidir. Ötən il Azərbaycan ilk Avropa Oyunlarına ev sahibliyi etdi. Gələn il isə IV İslam Həmrəyliyi Oyunları keçiriləcək. Möhtərəm Prezidentimiz İlham Əliyevin vurğuladığı kimi, bu, sadəcə olaraq İslam və Avropa ölkələri idmançılarının yarışı deyil, bu, bizim ümumi, ümumbəşəri dəyərlərə verdiyimiz töhfədir. Təbii ki, bu töhfələri işıqlandırmaq, təbliğ etmək mətbuatdan böyük məsuliyyət tələb edir. Dünya informasiya məkanına sürətlə inteqrasiya edən mətbuatımız əsas prinsipləri- dövlətçiliyi, azərbaycançılığı, vətənpərvərliyi, milli şüuru önə saxlayaraq uğurlarımızı beynəlxalq ictimaiyyətə çatdırmalıdır. Azərbaycanın ev sahibliyi etdiyi hər bir tədbir uğurlarımızın təqdimatı, qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmaq üçün şəylərin birləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Müxtəlif mədəniyyətlərin və dinlərin qovuşduğunda yerləşən Azərbaycan bu təqdimatı ilə bir daha bu reallığı da nümayiş etdirir ki, istər təşəbbüçüsü və iştirakçısı olduğu enerji layihələri, istərsə də ev sahibliyi etdiyi tədbirlər ölkələr, xalqlar arasında dostluq körpüsünün daha da möhkəmləndirilməsinə xidmət edir. Möhtərəm Prezidentimiz İlham Əliyev bildirir: "Azərbaycan o ölkələrdəndir ki, öz sözünü deyir, öz siyasətini aparır. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləməsə, biz müstəqil siyasət apara bilmərik. Bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər. Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf gözə çəbağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur." Uğurlarımız fonunda bir daha bu əminliyi ifadə edirik ki, Azərbaycanın müstəqillik tarixində keçdiyi yolun bələdçisi olan mətbuatımız tezliklə İşğal altında olan torpaqlarımızın azad olunması xəbərinin müjdəçisi olacaq.